# Azərbaycan-Pakistan strateji əməkdaşlığı sülhə xidmət edir



Dünyanın ən gənc və maraqlı dövlətlərindən biri Pakistandır desək, yanılmarıq. Bu dövlət qədim sivilizasiyaların beşiyi olan Hindistan yarımadasının şimalında min ildən çox davam edən tarixi, hərbi-siyasi proseslərin nəticəsi kimi meydana çıxmışdır.

Burada qədim sivilizasiyaların xarabalıqları Britaniya müstəmləkə memarlıq üslubu ilə yanaşı yaşayır. Ölkənin şimalı hündür mənzərəli üç dağ quruluşu - Himalay, Hindukuş və Qarakorum ilə birləşir, cənubu isə Ərəb dənizinin isti suları ilə yuyulur. Eyni zamanda 14 səkkizminlikdən beşi, o cümlədən dünyanın ikinci zirvəsi Çoqori Pakistanda yerləşir. Bunun nəticəsidir ki, ölkədə alpinizm yaxşı inkişaf etmişdir.

Təbiət bu ölkəyə öz səxavətini əsirgəməyib. Pakistan və Çini birləşdirən, uzunluğu 1.300 kilometr olan dünyanın ən yüksək dağlıq və mənzərəli yolu - Qarakorum şosesi bu ölkənin geostrateji əhəmiyyətini daha da artırır.

Son illər Pakistan planetin ən maraqlı turizm məkanı kimi tanınıb. Turistlərin bəziləri Pakistanın İsveçrəsi adlandırılan yaşıl Svat vadisinə, bəziləri cansız qayaları və səhraları ilə Baltistana üz tuturlar. Ölkənin əsas kurort mərkəzi isə 20 milyondan çox əhalisi olan Kəraçi şəhəridir. Turistləri qar kimi ağ çimərliklər, Ərəb dənizinin ılıq suları, balıq ovu və dalğıc idman növü də cəlb edir. Maraqlı haldır ki, qadın turistlərin Pakistanda səyahəti Hindistandan daha təhlükəsizdir. Olduqca xoş haldır ki, yerli sakinlər səyahətçilərə gəlir mənbəyi kimi yox, qonaq kimi baxmağa meyillidirlər.

Azərbaycanlılar kimi, pakistanlılar da dünyanın ən qonaqpərvər xalqlarından biridir. Yerli sakinlər turistləri öz evlərində qalmağa dəvət edir, onları evdə hazırlanmış çeşidli yeməklərə qonaq edir, ətraf ərazilərlə tanış edir, öz avtomobilindən istifadə etməyə icazə verirlər. Zəngin mətbəx mədəniyyətinə malik olan pakistanlılar öz yeməkləri ilə fəxr edirlər. Əgər onu tərifləsən, bütün qapılar üzünə açıla bilər.

Bu müsəlman ölkəsi təkcə gözoxşayan təbii mənzərələri ilə deyil, həm də möhtəşəm tikililəri ilə də şöhrət qazanmışdır. Paytaxt İslamabadda dünyanın ən böyük Feysəl məscidində 300 minədək insanın eyni zamanda namaz qılması mümkündür.

Dost Pakistan dövləti hər il müstəqillik günü olan avqustun 14-nü həyatın müxtəlif sahələrində böyük uğurlarla, coşqu və sevinclə qeyd edir. Enerji ehtiyatları məhdud olsa da, alternativ qaynaqlardan istifadə iqtisadiyyatın inkişafını təmin etməyə imkan verir. 221 milyon nəfər əhalisi olan bu ölkədə kifayət qədər işçi qüvvəsi mövcuddur. 2022-ci ildə ümummilli daxili məhsulun həcmi 377 milyard dollar təşkil etmişdir. Bu zaman onun orta illik artım sürəti 5, 97 faiz təşkil etmişdir. Əhalinin adambaşına düşən gəliri isə 1.536 dollar olmuşdur.

2023-cü ilin iyuluna olan məlumata görə, onun beynəlxalq valyuta ehtiyatları 13.464 milyard dollar olmuş, qızıl ehtiyatları 64.66 tona çatmışdır. Xarici borcların ödənilməsinə də xeyli miqdarda vəsait sərf olunur.

Bu gün Pakistan həm də nüvə silahına malik olan səkkizinci və yeganə müsəlman dövlətdir. Xarici qaynaqların məlumatına görə, o, 2025-ci ildə Rusiya və ABŞ-dən sonra üçüncü nüvə dövlətinə çevriləcəkdir. Hazırda döyüş başlıqlarının sayına və onları daşıma vasitələrinə görə qonşu Hindistandan xeyli üstündür. Digər tərəfdən Kəşmir probleminin bu gündək öz həllini tapmaması onların arasında nüvə münaqişəsi riskini, qarşılıqlı etimadsızlığı daha da artırır.

Pakistan xarici siyasət xəttində qardaş Türkiyəyə xüsusi önəm verir. Rəsmi İslamabad digər sahələrdə olduğu kimi, hərbi sahədə də Ankara ilə əməkdaşlığa əhəmiyyət verir. Pakistan və Türkiyə 20 ildən artıqdır ki, müdafiə sənayesi sahəsində sıx əməkdaşlıq edirlər. Onların arasında aviasiya sənayesi sahəsində də əməkdaşlıq qurulmuşdur.

Pakistanın xarici əlaqələrində Azərbaycan da özünəməxsus yer tutur. Bu münasibətlər tarixi, dini, mədəni köklər üzərində qərarlaşıb. Azərbaycan dövlət müstəqilliyi əldə edəndən sonra qarşılıqlı münasibətlər keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. 2015-ci ildə Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında "Strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə" nin imzalanması isə daha mühüm əhəmiyyət kəsb etmişdir. İki ölkə arasında münasibətlərin hüquqi bazasını təmin edən 34 sənəd imzalanmış, 17 sənəd isə baxılmaqdadır.

Prezident İlham Əliyev 2022-ci il noyabrın 25-də "Orta dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda beynəlxalq konfransda çıxışı zamanı Azərbaycan-Pakistan münasibətlərindən bəhs edərkən bildirib ki, Azərbaycan-Pakistan münasibətləri dostluq və qardaşlıq müstəvisində inkişaf edir.

Bu il iyunun 15-də Prezident İlham Əliyevin dəvəti ilə Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin Azərbaycana rəsmi səfəri bu münasibətlərə yeni impuls verdi. Yüksəksəviyyəli danışıqlar prosesində nəqliyyat, logistika, kənd təsərrüfatı, energetika, investisiyaların təşviqi, iqtisadi-ticarət əlaqələrin genişləndirilməsi məsələləri ilə bağlı müzakirələr aparıldı və bununla əlaqədar olaraq müvafiq hökumət orqanlarına tapşırıqlar verildi.

İki ölkə arasında parlamentlərarası əlaqələr də inkişaf etməkdədir. 2022-ci ilin yayında Pakistan Senatının Sədri Məhəmməd Sadiq Səncrani Azərbaycana səfər etmiş və Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı konfransında iştirak etmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsində qətiyyətli mövqeyi ilə seçilən iki ölkədən biri qardaş Pakistandır. Hələ 1993-cü il aprelin 30-da Kəlbəcərin işğal olunması məsələsi BMT-nin Təhlükəsizlik Şurasının müzakirəsinə çıxarılarkən Azərbaycanın ərazi bütövlüyünün bərpasını tələb edən 822 saylı qətnamənin qəbul edildiyi iclasa məhz Pakistan sədrlik etmişdi. Azərbaycan üçün Pakistanın siyasi dəstəyi xüsusilə vacibdir. Azərbaycan da Cammu və Kəşmir məsələsində Pakistanın haqlı mövqeyini dəstəkləyir və bu məsələdə Pakistan ilə həmrəydir. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində Cammu və Kəşmir məsələsi üzrə əlaqə qrupunun üzvüdür.

İqtisadi sahədə də əlaqələr inkişaf edir. 2022-ci ildə Pakistanın Azərbaycana ixrac etdiyi əsas məhsullar kartof, parçalar, kibrit qutuları, düyü, dərmanlar, cərrahiyyə alətləri və idman mallarından ibarət olub. Pakistanın əsas idxal məhsulu isə karbamid olub.

2022-ci ildə iki ölkə arasında qarşılıqlı ticarət dövriyyəsi 28,2 milyon dollar təşkil etmişdir. Pakistanın idxalı 7, 7 milyon dollar, ixracı isə 20, 5 milyon dollar təşkil edib. Onun səviyyəsini yüksəltmək üçün hazırda ardıcıl iş aparılır. Bu sahədə Azərbaycanla Pakistan arasında ticarət sahəsində əməkdaşlıq üzrə Birgə İşçi Qrupunun həm birbaşa, həm də videokonfrans formatında üçüncü iclasını qeyd edə bilərik.

Müdafiə sahəsində əməkdaşlıq ikitərəfli münasibətlərin mühüm sütununu təşkil edir. Azərbaycan ilə Pakistan arasında hərbi sahədə əməkdaşlıq 2002-ci ildən başlayaraq yüksələn xətlə inkişaf edir. İkitərəfli hərbi əməkdaşlıq çərçivəsində hərbi təlimlərin keçirilməsi və kursların təşkili, birgə təlimlərdə iştirak, ikitərəfli təlim obyektlərindən istifadə, hərbi-texniki və hərbi sənaye sahəsində əməkdaşlıq daxildir. İkinci Qarabağ savaşı zamanı Pakistan Azərbaycanın haqq işini müdafiə edib.

Mədəniyyət, elm və təhsil, humanitar sahələrdə də əlaqələr ildən-ilə güclənməkdədir. Bu gün Azərbaycanda 750 pakistanlı tələbə təhsil alır. Təkcə ötən il isə pakistanlı 100 tələbə ölkəmizdə təhsil almaq üçün müxtəlif ali məktəblərə qəbul olunmuşdur.

Pakistanda Heydər Əliyev Fondunun dəstəyi ilə bir sıra bölgələrdə təhsil ocaqları bərpa olunub, yeniləri inşa edilib, ehtiyacı olanlara humanitar yardımlar göndərilib. Təsadüfi deyil ki, bu əlaqələrin inkişafına verdiyi əhəmiyyətli dəstəyə görə Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Pakistanın "Hilal-e-Pakistan" ordeni ilə təltif edilib.

Qardaş Pakistan həmişə Azərbaycanın yanında olmuş, böyük qətiyyət və siyasi iradə ortaya qoymuşdur. Azərbaycan xalqının qəlbinin ən gözəl guşələrindən birində bu qardaş xalqın özünəməxsus yeri var.

Azərbaycan-Pakistan siyasi, iqtisadi, hərbi və mədəni əməkdaşlığı Cənubi Qafqazda və Cənubi Asiyada sılh işinə və əmin-amanlığa xidmət edir.

***Atamoğlan MƏMMƏDLİ,***
***BDU-nun dosenti***

Azərbaycan.- 2023.- 15 avqust.- S.3.